# Cəlilabad: Ucalıq torpağa bağlılıqdadır



**Torpağa əyilən, onu becərən hər kəs bunun bəhrəsini mütləq görür, üstəlik də ölkənin məhsul bolluğuna töhfələr verir. Əsasən aqrar rayon olan Cəlilabadın nümunəsində bu fikir bütünlüklə öz təsdiqini tapır.**

İnkişaf dövrünü yaşayan Cəlilabadda sosial sahənin yenilənməsi ilə bərabər, iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatı sahələrinin inkişafı təmin edilib. Bu rayonda kənd təsərrüfatına yararlı torpaqlar yüz min hektardan çoxdur. Bunun dörddə-üçü əkin, qalanı otlaq və biçənək sahələridir. Rayon üzrə hər nəfərə 0,44 hektar torpaq düşür. Əhalinin 159 min nəfərinə və ya 32163 ailəyə torpaq payı verilib. Taxılçılıq, üzümçülük, kartofçuluq, tərəvəzçilik, bostançılıq, meyvəçilik, yemçilik, eyni zamanda heyvandarlıq sahələri davamlı inkişaf edir.

İki il öncə Prezident İlham Əliyev Cəlilabada növbəti səfəri zamanı şəhərə içməli su xəttinin, yeni yolların, telekommunikasiya xidmətinin açılışı ilə bərabər, "Günəşli" heyvandarlıq kompleksinin və "Avanqard" MMC-nin dənli və paxlalı bitkilərin təmizlənməsi və qablaşdırılması müəssisəsinin də istismara buraxılmasında iştirak edib. Bu kimi tədbirlər əkin-biçin adamlarının rahatlığını təmin edən amillər kimi hədsiz razılıqla qarşılanıb.

Rayonda hər kəs kənd təsərrüfatı sahəsinin həyati əhəmiyyətini dərindən dərk edir, yaradılan şəraitdən nəsibini alır. Torpaq adamları arxayındırlar ki, istər icra hakimiyyətinin başçısı Namiq Zeynalov və icra aparatının məsul işçiləri, istərsə də dövlət aqrar inkişaf mərkəzinin direktoru Rahib Kərimov və aqrar sahə mütəxəssisləri əkinçi-biçinçilərə hər vasitə ilə kömək edir, əlini torpaqdan üzməyən kəslərin binərəkət arzularının gerçəkləşməsinə həqiqi yardımçı olurlar.

Cəlilabadda kənd təsərrüfatı məhsullarının yarıdan çoxunu bitkiçilik, qalanını isə heyvandarlıq məhsulları təşkil edir. Ümumi həcmdə bu fərq 51-49 faiz nisbətindədir. Aqrar sahədə 200-ədək fiziki və hüquqi şəxs, o cümlədən 4 dövlət müəssisəsi, 30-a qədər xidmət təşkilatı və kooperativ, onlarca fərdi sahibkarlıq təsərrüfatı fəaliyyət göstərir. Torpaq adamları ötən təsərrüfat ilini uğurla başa çatdırıb, məhsul bolluğuna nail ola biliblər.

Taxılçılıq rayonda ənənəvi sahədir. Keçən il hər hektardan 28,3 sentner olmaqla 52 min 100 hektarda buğda, 25,4 sentner olmaqla 2805 hektarda arpa, 22,7 sentner olmaqla 2600 hektarda vələmir əkilərək bol məhsul götürülüb. Biçilən məhsulun 147443 tonu, yəni yarıdan çoxu buğda olub.

Cəlilabadda ən çox becərilən və istehsal olunan məhsullardan biri kartofdur. 2018-ci ildə 5000 hektar sahədə kartof becərilib, hər hektardan 221,1 sentner olmaqla 110 min 558 ton məhsul istehsal edilib. Son illər inkişaf etdirilən sahələrdən biri də üzümçülükdür. Rayondakı pay, bələdiyyə və dövlət torpaqlarında, habelə həyətyanı sahələrdə 1331 hektardan çox üzümlük var. Ötən il hər hektardan 127 sentner olmaqla 17 min ton üzüm yetişdirilib. Üzümçülük əməktutumlu və gəlirli sahədir. Burada adamlar ilboyu işlə təmin olunur. "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" üzrə müddəalara zəruri diqqət yetirilir. Bu proqrama əsasən rayonda üzümçülük sahələri daha da artırılır.

Rayonda 1500 hektara yaxın üzüm sahəsi var. Bunun 360 hektarı texniki, yerdə qalan sahəsi isə süfrə üzümüdür. Ötən il 38 hektarda yeni üzüm bağları salınıb. Bu il də bu istiqamətdə işlər davam etdiriləcək.

Keçən il Cəlilabadda meyvə bağları genişləndirilərək 664, mərci sahələri 480, çiyələk sahələri isə 420 hektara çatdırılıb. Xeyli qarğıdalı, günəbaxan, şəkər çuğunduru, sarımsaq, noxud, lərgə da yetişdirilib. 505 hektarda pambıq əkilərək 29 sentner məhsuldarlıq əldə edilib. Bu il pambıq sahələri bir qədər də artırılıb. Rayonun tanınmış fermerləri Etibar Hüseynov, Xanlar Mirzəyev, Qasım Mirzəyev müxtəlif əkin strukturları üzrə yüksək nəticələr qazanmaları ilə şöhrət qazanıblar. Etibarın taxılı və etibarlı toxumçuluq məhsullarının, Xanların ikinci çörək sayılan saf kartofunun, Qasımın bal kimi şirin, ekoloji və bioloji təmiz çiyələyinin olması adla deyilir.

Yeri gəlmişkən, Cəlilabadın məhsullarına xarici bazarda maraq artmaqdadır. Dünyada genetik modifikasiya məhsulları yeyənlərin sayı azalır və bu səbəbdən təmiz məhsullar böyük alıcı kütləsinə sahiblənir. Bunlardan biri də açıq havada yetişdirilən çiyələkdir. Artıq iki həftə olar ki, çiyələk yığımı və satışı həyata keçirilir. İstehsalçılar öz məhsullarını yerli bazarla yanaşı, Rusiyaya və ərəb ölkələrinə də ixrac edirlər. Bir neçə ildir ki, rayonda İspaniyadan gətirilmiş yeni növ çiyələk də əkilir və bu, məhsuldarlığı iki dəfədən çox artırıb. Yeni inşa edilmiş soyuducu anbar 130 tondan çox çiyələk ixracına imkan yaradıb. Fermerlər müqavilə əsasında Dubaya, Küveytə 10 tonlarla çiyələk ixrac ediblər.





Rayondakı əkinlərin yarıdan çoxu dəmyə şəraitində becərilir. Suvarılan sahələr 10 min hektardan artıqdır. Suvarma kanalları, dəryaçalar əkinçilərin karına gəlir. Azərbaycan Prezidentinin 2018-ci il 31 avqust tarixli sərəncamı ilə rayon ərazisindəki "İncəçay", "Cəfərxanlı", "Üçtəpə", "Bəylər" və "Alıcı" su anbarlarında təmir-bərpa işlərinin aparılması məqsədilə 4,5 milyon manat vəsait ayrılıb. Bununla əlaqədar həmin bəndlərdə torpaq bərkitmə işləri görülüb, dəmir-beton konstruksiyalar quraşdırılıb, siyirtmələr və suaxıdıcı borular dəyişdirilib. Yenilənmiş bəndlərin istifadəyə verilməsi əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasında mühüm rol oynayacaq. Bu ilin məhsulu üçün Cəlilabadda daha çox – 80 min hektaradək sahədə əkinşum tədbirləri həyata keçirilib. 62,6 min hektar taxıl, 1624 hektar paxlalı bitkilər, 1500 hektar üzüm, 4800 hektar kartof, 420 hektar çiyələk əkilib və həmin sahələr yüksək aqrotexniki qaydada becərilir. İnam var ki, məhsuldarlıq da ötən ilkindən yüksək olacaq.

Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan özünüməşğulluq proqramı Cəlilabad rayonunda da aztəminatlı ailələrin sosial yardım proqramından asılılığının aradan qalxmasına, onların kiçik sahibkarlıq fəaliyyətinə başlamasına imkan yaradıb. Onlarca işsiz və işaxtaran şəxs əsasən kənd təsərrüfatı üzrə kiçik ailə təsərrüfatlarını yaratmaq üçün mal və materiallarla təmin edilib.

Baytarlıq İdarəsinin 21 sahə baytarlıq məntəqəsi tərəfindən xüsusi təhlükəli xəstəliklərə qarşı profilaktika tədbirləri aparılır. İdarənin mütəxəssisləri rayonun 1 qəsəbə və 144 kəndində vətəndaşların xüsusi mülkiyyətində olan 98477 baş iribuynuzlu, 122461 baş xırdabuynuzlu və 897000 başdan artıq ev quşuna baytarlıq xidməti göstərirlər. İlin əvvəlindən ayrı-ayrı təsərrüfatlarda iribuynuzlu, təkdırnaqlı heyvanlar və cücələr xəstəliklərə qarşı peyvənd edilib. Həm də 253832 kvadratmetr sahədə profilaktik dezinfeksiya işləri aparılıb. Rayonda baytarlıq preparatlarının istifadəsində şəffaflığın təmin edilməsi məqsədilə üzərində "satıla bilməz" yazılmış biopreparatların və dərman maddələrinin heyvanlara təmənnasız tətbiqi ilə bağlı maarifləndirmə işi aparılır.

Cəlilabadda vaxtaşırı kənd təsərrüfatı məhsullarının satış-sərgi və yarmarkaları keçirilir, hər dəfə də 100-dən çox istehsal sahəsinin məhsulları nümayiş etdirilir və münasib qiymətlərə satışa çıxarılır. Belə tədbirlər əsl bolluq, firavanlıq rəmzinə çevrilir. Rayonda ilbəil torpaqlardan səmərəli istifadə olunması, aqrar sahədə çalışanların sayının çoxalması fərəh doğurur.

Torpaq adamları öz həyatlarını yetərincə təmin edə bilirlər. İndi Cəlilabadda elə bir yaşayış məntəqəsi yoxdur ki, orada neçə-neçə yeni, geniş, gözəl ev tikilməsin, məişət şəraiti daha da yaxşılaşmasın. Xarici markalı fərdi minik avtomobillərinin də sayı durmadan artır. Bütün bunlar camaatın torpağa bağlılığının fərəhli nəticələridir.

*Əli NƏCƏFXANLI,*
*"Xalq qəzeti"nin bölgə müxbiri*

